


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 203 (24.340)

*2 noyabr 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Pakistan Silahlı Qüvvələrinin Quru Qoşunları komandanını qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 1-də Pakistan Silahlı Qüvvələrinin Quru Qoşunları komandanı Asim Muniri qəbul edib.

Dövlətimizin başçısı ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyini bildirdi.

Prezident İlham Əliyev Ermənistanın Azərbaycana təcavüzü dövründə Pakistan hökumətinin və xalqının ölkəmizə göstərdiyi davamlı dəstəyi yüksək qiymətləndirdi. Dövlətimizin başçısı Pakistanın Ermənistanın təcavüzünə görə bu ölkə ilə diplomatik əlaqələr qurmamasını Azərbaycana göstərilən qardaşlıq münasibətinin nümayişi kimi dəyərləndirdi.

Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsi dövründə də Pakistanın Azərbaycana göstərdiyi siyasi dəstəyə görə minnətdarlığını ifadə etdi.



Dövlətimizin başçısı torpaqlarımızın işğaldan azad olunması kimi tarixi missiyanı başa çatdırdığımızı, suverenliyimizin tam bərpa olunduğunu, işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı yenidənqurma işlərinə başlanıldığını məmnunluqla bildirdi.

Prezident İlham Əliyev Azərbaycan ilə Pakistan arasında hərbi sənaye sahəsində uğurlu əməkdaşlığın olduğunu deyərək, ölkələrimizin birgə hərbi təlim keçirməsinin önəminə toxundu.

Dövlətimizin başçısı beynəlxalq səviyyədə ölkələrimizin suverenliyi və ərazi bütövlüyü məsələsinə toxunaraq Azərbaycanın qardaş Pakistanı Cəmmu və Kəşmir məsələsində hər zaman dəstəklədiyini bir daha qeyd etdi.

Prezident İlham Əliyev Asim Munirin səfərinin əməkdaşlığımızın möhkəmlənməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.

Asim Munir İkinci Qarabağ müharibəsində əldə olunan Qələbə və bu ilin sentyabrında həyata keçirilən antiterror tədbirlərində Azərbaycanın qazandığı uğurlar münasibətilə təbriklərini çatdırdı, bunun Pakistanda böyük sevinclə qarşılandığını qeyd etdi. Qonaq Pakistanın Azərbaycan xalqı ilə qardaşlıq əlaqələri nümayiş etdirərək Ermənistanı bu günə kimi tanımadığını bir daha vurğuladı.

Asim Munir Cəmmu və Kəşmir məsələsində ölkəmizin dəstəyinə görə minnətdarlığını bildirdi.

**AZƏRTAC**

## Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin yaradılması haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 6-cı bəndini rəhbər tutaraq muxtar respublikada dövlət idarəetmə strukturunu təkmilləşdirmək məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi və **"Naxçıvan Muxtar Respublikasının Dövlət Nəqliyyat Xidməti"** publik hüquqi şəxsi birləşdirilərək onların əsasında Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti iki ay müddətində:

2.1. Naxçıvan Muxtar Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamənin layihəsini, habelə Nazirliyin strukturu və işçilərinin ümumi say həddi barədə təkliflərini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

2.2. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının uyğunlaşdırılması ilə bağlı təklifləri hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

2.3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin normativ-hüquqi aktlarının uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 31 oktyabr 2023-cü il*

## R.Z.Ələkbərlinin Naxçıvan Muxtar Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Rahid Zahid oğlu Ələkbərli Naxçıvan Muxtar Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini təyin edilsin.

2. Naxçıvan Muxtar Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Naxçıvan Muxtar Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rahid Zahid oğlu Ələkbərliyə həvalə edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 31 oktyabr 2023-cü il*

## Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri və nümayəndə heyəti Naxçıvan şəhərində səfərdədir



Noyabrın 1-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Səttar Möhbalıyev və nümayəndə heyəti Naxçıvan şəhərinə səfər ediblər.

Səfər Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev, onu müşayiət edən şəxslər və Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayevin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsinin ziyarət edilməsi ilə başlayıb. Qeyd edək ki, 3 gün davam edəcək səfər zamanı Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının binasına, Şuranın balansına yeni alınmış "Duzdağ" hotelə, Duzdağ Fizioterapiya Mərkəzinə, "Darıdağ Arsenli Su Müalicə Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinə, hazırda tikinti işləri davam edən Darıdağ arsenli su müalicə və istirahət kompleksi və Ağbulaq İstirahət Mərkəzinə baxış keçiriləcək.

**Xəbərlər şöbəsi**

## Kənd Təsərrüfatı İşçiləri Günü qeyd olunub

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2008-ci ildə imzaladığı Fərman əsasında hər il noyabrın 1-i Azərbaycanda "Kənd Təsərrüfatı İşçiləri Günü" kimi qeyd olunur.*

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri vəzifələrini müvəqqəti icra edən, nazir müavini Xəyalə Dadaşova və nazirliyin kollektivi bu münasibətlə Ümummilli Liderin abidəsi önünə gül dəstələri qoyaraq Heydər Əliyev Muzeyində Ümummilli Liderin həyat və fəaliyyətinə aid eksponatlarla tanış olublar.

Daha sonra nazirlikdə təşkil olunan tədbirdə Xəyalə Dadaşova bu əlamətdar gün münasibətilə tədbir iştirakçılarını təbrik edib. Diqqətə çatdırıb ki, əsası Ümummilli Lider tərəfindən qoyulmuş və hazırda davam etdirilən uğurlu aqrar siyasət nəticəsində ölkə iqtisadiyyatında kənd təsərrüfatı xüsusi yerə malikdir. Ulu Öndərin gərgin əməyi ilə həm keçmiş sovetlər dönəmində, həm də müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə aqrar sahədə də resurslardan səmərəli və məqsədyönlü istifadə təmin olunaraq bu sahənin dayanıqlı inkişafı üçün möhkəm baza yaradılıb.

Ölkə başçısı tərəfindən kənd təsərrüfatının inkişafının prioritet elan edilməsi, çoxşaxəli dövlət dəstəyi sisteminin yaradılması və aqrar sahənin uzunmüddətli dinamik inkişafı nəticəsində son 20 ildə Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsal həcmi 2 dəfədən çox artıb. Bu da onu deməyə əsas verir ki, qeyri-neft sektorunda yaradılmış əlavə dəyərin orta hesabla 10 faizi aqrar sahənin payına düşür.





"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"ndan irəli gələn məsələlərin icrasına başlanıldığını vurğulayan nazir vəzifələrini icraçısı ehtiyac duyulan bir çox məsələlərin həlli ilə yanaşı, aqrar sahənin inkişafında əsas rol oynayan əkinəyararlı torpaqların istifadəsiz qalmasının qarşısının alınması və mütərəqqi suvarma və əkin texnologiyalarından istifadə ilə bağlı təkliflərin hazırlandığını tədbir iştirakçılarının diqqətinə çatdırıb. Kənd təsərrüfatının inkişafına sadə əkinçilik sxemi ilə deyil, müasir tələblərə cavab verən yeni metodologiyalar, mütərəqqi üsullarla yanaşmalı, müasir suvarma sistemlərinin tətbiqi, müasir dronlardan istifadə edilməli, fermerlərin, sahibkarların bu sahədə bilik-bacarıqları daha da təkmilləşdirilməlidir.

Tədbirdə çıxış edən nazirlik əməkdaşları Prezidentin imzaladığı son fərman və sərəncamlar, eyni zamanda aqrar sahəyə göstərdiyi daimi diqqət və qayğı nəticəsində kənd təsərrüfatının bütün sahələrinin dinamik inkişaf etdiyini, zəruri potensialın formalaşdırılması üçün məqsədyönlü tədbirlərin icrasının uğurla davam etdirildiyini diqqətə çatdırıblar. Göstərilən diqqət və qayğıya görə aqrar sahənin işçiləri, fermer və sahibkarlar dövlət başçısına dərin minnətdarlıqlarını bildiriblər.

**Fariz ƏHMƏDOV**

# Məhkəmə-hüquq sisteminin iyirmi illik inkişaf mərhələsi



*15 oktyabr 2003-cü il Azərbaycan xalqı dahi rəhbərin davamçısına sədaqət nümayiş etdirdi. Həmin tarixdə keçirilən prezident seçkilərində xalqımızın seçimi Ulu Öndər Heydər Əliyevin siyasi kursunun varisi, davamçısı olan İlham Əliyev oldu. Bununla Azərbaycan xalqı özünə yeni əsrdə yeni lider seçmiş oldu. Xalqımızın yeni əsrdə yeni lideri olan cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən artıq 20 il ötür. 2003-2023-cü illər ölkəmizin tarixinə bütün sahələrdə intibah və yüksəliş dövrü kimi daxil olub. Bu gün Azərbaycan Respublikasına Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsinin əsaslarını dərindən mənimsəmiş, xalqına xidməti həyat amalına çevirmiş, Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və dinamik inkişafının qarantı olduğunu əyani şəkildə sübuta yetirmiş cənab İlham Əliyev kimi müdrik, qətiyyətli və mahir siyasətçi rəhbərlik edir.*

Müstəqilliyini günbəgün, ilbəil möhkəmləndirən Azərbaycanımızın tarixində Prezident cənab İlham Əliyevin qızıl hərflərlə yazdığı şanlı səhifələrin sayı saymaqla bitməz. Hər ili əsrə bərabər 20 ilin zirvəsində, təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi dayanır. Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Qarabağ Zəfəri xalqımızın qəhrəmanlıq tarixinə əbədi yazıldı. Otuz ilə yaxın işğal altında qalmış torpaqlarımız 44 gün ərzində işğaldan azad olundu. Qarabağın tacı, döyünən ürəyi olan Şuşanın fəthi tariximizə Zəfər Günü kimi yazıldı. İşğalçı Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu. Beləliklə, BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalmış qətnamələrini Azərbaycan özü icra etdi.

Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli və müdrik siyasəti nəticəsində Azərbaycanın iqtisadi və hərbi qüdrəti, beynəlxalq nüfuzu gücləndi. Bu qətiyyət və müdrik siyasətin nəticəsində üçrəngli bayrağımızın 30 ildən sonra Qarabağda, Şərqi Zəngəzurda yenidən dalğalanmasına nail oldu. İlham Əliyevin rəhbərliyi altında qazanılan qələbə ilə Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Bu Qələbə sayəsində regionda yeni reallıqlar yarandı.

Bu il sentyabrın 19-da rəşadətli Ordumuzun Qarabağda başlatdığı lokal xarakterli antiterror tədbirlərinin qısa müddətdə öz müsbət nəticəsini verməsi, qarşıya qoyulan hədəflərə cəmi 24 saatda nail olunması Azərbaycanın növbəti tarixi Qələbəsidir. Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunmuş 24 saatlıq antiterror tədbirləri nəticəsində Qarabağ düşmən tapdağından tam şəkildə azad olunmuş, dövlətimizin suverenliyi tam təmin olunmuşdur. Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev göstərdi ki, Azərbaycan regionda prosesləri diktə edən tərəfdir, sülh və sabitliyin əsas təminatçısıdır. Bu, eyni zamanda Prezident cənab İlham Əliyevin qətiyyəti, müdrik və uzaqgörən siyasətinin məntiqi nəticəsi, dövlətimizin başçısının ətrafında “dəmir yumruğ”a çevrilmiş xalqımızın daha bir Tarixi Zəfəri oldu.

Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev hər zaman xalqımıza verdiyi sözə əməl etmiş, ***“sözümüz imzamızdır”*** prinsipini özünə rəhbər tutmuşdur. Prezident cənab İlham Əliyev ali kürsüyə çıxdığı ilk gündən bəyan etmişdi ki, Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün var gücü ilə çalışacaq. Dediyi sözə, verdiyi vədə sadiq qalaraq ölkəmizi dünyanın ən güclü dövlətlərindən birinə çevirdi. Bu, bir siyasət adamının böyüklüyünün əsas göstəricisidir. Prezidentimizin şəxsiyyətinin böyüklüyü həm də ondadır ki, xalqı milli amallar və məqsədlər naminə öz ətrafında birləşdirə, sabaha inam yarada bildi. Ötən illər ərzində ölkəmizdə mövcud olan ictimai-siyasi sabitliyin və vətəndaş həmrəyliyinin əsasında da məhz bu birlik və inam dayanır. Xalqın öz liderinə sonsuz inamı, liderin isə öz xalqına arxalanması Azərbaycanın qazandığı bütün uğurların istinad nöqtəsini təşkil edib və edir.

2003-cü ilin oktyabrında, prezident seçkiləri ərəfəsində Ümummilli Lider Heydər Əliyev Azərbaycan vətəndaşlarına tarixi müraciətində əsasını qoyduğu siyasəti davam etdirə biləcək liderin dəqiq ünvanını da göstərmişdi: ***“... Üzümü sizə – həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini cənab İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə cənab İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.***

Ulu Öndərin siyasi varisi olan cənab İlham Əliyev ötən 20 illik fəaliyyəti dövründə bu inamı bütünlüklə doğruldub, xalqa verdiyi bütün vədləri yerinə yetirib. Bütün sahələrdə sürətli inkişafa nail olunub, insanların rifah halı ildən-ilə yaxşılaşıb. Azərbaycanın siyasi-iqtisadi imkanları genişləndirilib, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmləndirilib.

Azərbaycan xalqı görülən işləri, əldə olunan nailiyyətləri hər zaman dəyərləndirmiş və öz seçimini məhz buna əsaslanaraq etmişdir. Odur ki, xalqımız 2008-ci il oktyabrın 15-də, 2013-cü il oktyabrın 9-da və 2018-ci il aprelin 11-də keçirilən prezident seçkilərində də Heydər Əliyev siyasətinin layiqli davamçısına, sabitliyə, əmin-amanlığa, tərəqqi və quruculuğa səs vermişdir. Bu həm də onu göstərir ki, Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur.

Dövlətimizin başçısı cənab İlham Əliyevin 20 illik prezidentlik fəaliyyətinin əsas qayəsində xalqa ləyaqətlə xidmət etmək, hər bir azərbaycanlının Prezidenti olmaq, dövlətçiliyimizi hər vasitə ilə möhkəmləndirmək dayanır. Tam əminliklə demək olar ki, Azərbaycanın bütün sahələrdə qazandığı misilsiz uğurlar məhz İlham Əliyev siyasətinin təntənəsidir və Ulu Öndərin əbədiyaşar ideyalarından qaynaqlanır.

Dövlətimizin başçısı cənab İlham Əliyev ölkəmizdə məhkəmə-hüquq sisteminin inkişafını daim diqqət mərkəzində saxlamış və bu sahəyə xüsusi qayğı göstərmişdir. Bu sahədə mütərəqqi islahatlar aparılmış, dövlətimizin məhkəmə-hüquq sistemi təkmilləşdirilmişdir. Əlbəttə, məhkəmə islahatları daimi prosesdir. Dövlət başçısı cənab İlham Əliyev, bu mənada, qeyd etmişdir ki, ***“bu islahatların əvvəli var, amma sonu yoxdur”***. Prezident cənab İlham Əliyev bütövlükdə məhkəmə sisteminin toplumda nüfuzunun daim yüksəldilməsi üzrə tövsiyə və tapşırıqlar verir. Dövlət başçısı bu istiqamətdə mütərəqqi islahatları davamlı və ardıcıl olaraq aparmaqdadır. Xüsusi qeyd etmək istərdik ki, ölkə rəhbərinin “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” 2019-cu il 3 aprel tarixdə imzaladığı Fərman böyük əhəmiyyətə malikdir. Həmin Fərmanı hüquqşünaslar məhkəmə-hüquq sistemi üçün “yol xəritəsi” kimi qiymətləndirirlər. Məhz həmin kontekstdə cənab İlham Əliyevin 2019-cu il aprelin 3-də imzaladığı Fərmanı mühüm tarixi sənəd adlandırmaq olar. Bununla Azərbaycanda məhkəmə islahatları müasir çağırışlara uyğun olaraq yeni mərhələyə keçid etmişdir. Həmin sənədin icrası çərçivəsində qısa müddətdə bu sahədə nəhəng işlər görülmüş, institusional tədbirlər çərçivəsində 13 regional məhkəmə, o cümlədən bölgələrdə ayrıca inzibati və kommersiya məhkəmələri yaradılmış, özəl ekspertiza təsbit olunmuş, mediasiya institutu fəaliyyətə başlamışdır. Prezident cənab İlham Əliyev vətəndaşların ədalət mühakiməsinə əlçatanlığının asanlaşdırılmasını daim diqqət mərkəzində saxlamışdır. Bu məqsədlə məhkəmə sistemi təkmilləşdirilmiş və 40-dək yeni məhkəmə yaradılmışdır. O cümlədən ölkənin hər bir bölgəsində apelyasiya məhkəmələri və inzibati ədliyyə institutu təsis edilmişdir. İslahatlar daxilində artıq qanunvericilik aktlarına bir çox dəyişikliklər edilmişdir. Məhkəmə proseslərində videokonfrans və elektron icraat tətbiq edilməkdədir. Məhkəmə rüsumlarının diferensiasiyasının tətbiqi də diqqətçəkən faktlardandır. Dövlət başçısı, bütün sahələrdə olduğu kimi, məhkəmə-hüquq sistemində də yeni yüksək texnologiyaların tətbiqinə ayrıca diqqət yetirir. Bu baxımdan mövcud məhkəmə infrastrukturunun Dünya Bankının iştirakı ilə müasirləşdirilməsi mühüm hadisədir. Bakıda və bölgələrdə məhkəmə üçün 35 yüksək texnoloji-hi-tech bina və komplekslər inşa olunmuşdur. Onların əksəriyyətinin açılışında Prezident cənab İlham Əliyev şəxsən iştirak etməklə məhkəmə-hüquq sisteminə böyük dəyər verdiyini nümayiş etdirmişdir. “Elektron məhkəmə” informasiya sisteminin yaradılması da bu bağlılıqda çox önəmli addımdır. Çünki bu fakt, ümumilikdə, elektron hökumətin fəaliyyətinin genişləndirilməsində, kadr seçimi ilə bağlı daha obyektiv və əsaslı qərarların qəbul edilməsində, rəqəmsal idarəetmə çərçivəsində rəqəmsal məhkəmənin formalaşdırılmasında olduqca geniş imkanlar meydana gətirib. Bu gün tam əminliklə söyləyə bilərik ki, hələ çox-çox illər sonra da gələcək nəsillər dahi şəxsiyyət Heydər Əliyevin və onun davamçısı İlham Əliyevin misilsiz əməyi nəticəsində yaradılmış yeni hüquq sisteminin bəhrəsini görəcək və onun Azərbaycanda demokratik-hüquqi dövlət quruculuğu sahəsində əvəzsiz xidmətlərinin şahidi olacaqlar.

Azərbaycan Prezidentinin müdrik siyasəti nəticəsində məhkəmə sistemi sahəsində əhəmiyyətli institusional tədbirlər görülüb. Bu kontekstdə məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası və həmçinin Hakimlərin Seçki Komitəsinin yaradılmasını ayrıca vurğulamaq lazımdır. Bu kontekstdə məhkəmələrin fəaliyyətinə müdaxilələrin Məhkəmə-Hüquq Şurası tərəfindən qarşısının alınması mexanizmlərinin də müəyyən edilməsi vacib hadisədir. Bu çərçivədə məhkəmə büdcələri təsdiq olunarkən Şura ilə razılaşdırılır. Hakimlərin əməkhaqqının azaldılmasının qanunla qadağan olunması da təsbit edilir. Hakimliyə namizədlərin ən mütərəqqi və şəffaf seçimi qaydası müəyyən olunub. Bu sahədə islahatlar daim davam etməkdədir.

Dövlətimizin başçısı bu islahatlar çərçivəsində muxtar respublikamıza da ayrıca diqqət yetirmişdir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 noyabr tarixli “Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında” Fərmanı Naxçıvan Muxtar Respublikasında ədliyyə-məhkəmə sisteminin müasirləşdirilməsində xüsusi rol oynamışdır. Fərmanda nəzərdə tutulan məhkəmə, prokurorluq və ədliyyə orqanları üçün zəruri şərait yaradılmışdır.

2006-2011-ci illər ərzində sözügedən Fərmanın icrası ilə əlaqədar muxtar respublikamızda fəaliyyət göstərən bütün məhkəmə orqanları üçün qabaqcıl meyarları özündə ehtiva edən inzibati binalar tikilib istifadəyə verilmişdir.

Həmçinin Azərbaycan Respublikası Prezidentinin yuxarıda adıçəkilən Fərmanının icrası məqsədilə Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi işinin təşkili üçün metodiki köməklik göstərilmişdir.

Naxçıvan Muxtar Respublikasında insan hüquqlarının müdafiəsi mexanizmləri təkmilləşdirilmiş və yeni təsisat – Ombudsman təsisatı yaradılmışdır. Qeyd etmək lazımdır ki, bu təsisatın fəaliyyət göstərməsi üçün öncə hüquqi və maddi baza yaradılmışdır. 30 dekabr 2005-ci ildə Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına əlavələrin və dəyişikliklərin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya qanunu qəbul edilmiş, həmin qanuna əsasən Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) seçilməsi və onun statusu ilə bağlı əlavə və dəyişikliklər edilmişdir.

Prezident cənab İlham Əliyevin məhkəmə-hüquq sisteminə göstərdiyi qayğının əyani təzahürlərindən biri bu sahədə təşkil edilən beynəlxalq tədbirlərdə iştirak edərək öz qiymətli tövsiyələrini verməsidir. Bu baxımdan cənab İlham Əliyevin Azərbaycan Ali Məhkəməsinin 100 illiyinə həsr olunmuş beynəlxalq konfransın iştirakçılarına ünvanlandığı müraciətdə ifadə etdiyi fikirlər çox aktual və maraqlıdır. Həmin fikirlərdə məhkəmə-hüquq sisteminin davamlı, şəffaf və demokratik tələblər çərçivəsində inkişafının başlıca istiqamətləri öz əksini tapmışdır. Ölkə rəhbəri demişdir: ***“...məhkəmə-hüquq sisteminin davamlı inkişafı daim dövlət siyasətimizin prioritetlərindən biri olmuşdur. Məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmlənməsi, hüququn aliliyinin təmin edilməsi, məhkəməyə müraciət imkanlarının genişləndirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin və keyfiyyətinin artırılması, yüksək hüquqi biliklərə malik hakim korpusunun yaradılması, məhkəmə fəaliyyətinin yeni informasiya texnologiyalarının tətbiqi yolu ilə təkmilləşdirilməsi bu inkişaf prosesinin mühüm istiqamətləridir”.***

Prezident cənab İlham Əliyev məhkəmə-hüquq sisteminin islahatlarında beynəlxalq təcrübəni aktiv surətdə öyrənməyi və tətbiqini tövsiyə edir. Həmin aspektdə ötən dövrdə aparılmış islahatlar zamanı Avropa Şurası ilə əməkdaşlığa xüsusi yer tutur. Bunun sayəsində məhkəmə fəaliyyətini tənzimləyən mövcud qanunvericilik mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla daha səmərəli səviyyəyə yüksəldilmiş, yeni qanunlar qəbul edilmiş və qanunvericilik davamlı olaraq təkmilləşdirilmişdir.

Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda aparılan məhkəmə-hüquq islahatları beynəlxalq aləmdə çox müsbət qarşılanmışdır. Azərbaycan Avropa Şurasının “Ədliyyənin Kristal Tərəzisi” mükafatına layiq görülmüşdür. Ədliyyə sisteminin müasirləşdirilməsi üzrə Dünya Bankı ilə birgə həyata keçirilən layihələr müxtəlif nominasiyaların qalibi olmuşdur. Azərbaycanın tətbiq etdiyi hakimlərin seçim proseduru Avropa Şurası və Avropa İttifaqı tərəfindən örnək kimi dəyərləndirilmişdir.

Respublikamızda həyata keçirilən hüquqi islahatlar ardıcıl bir prosesdir və əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş məhkəmə-hüquq sistemi islahatları böyük uğurla davam etdirilir. Prezident cənab İlham Əliyev Ulu Öndərin bu istiqamətdə müəyyən etdiyi kurs əsasında məhkəmə sistemində islahatları daha da genişləndirmiş və XXI əsr üçün onun konkret istiqamətlərini müəyyən etmişdir.

*Sonda əminliklə demək olar ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə hüquq sisteminin müasirləşdirilməsi konsepsiyası çərçivəsində həyata keçirilən islahatlar ədalət mühakiməsini keyfiyyətcə yeni səviyyəyə qaldıracaq, hüquq sisteminin davamlı inkişafını təmin edəcəkdir.*

**Polad HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin sədri***

*2023-cü il “Heydər Əliyev İli”dir*

# Bu təşəbbüsdən sonra respublikanın bütün hüquq-mühafizə orqanlarının rəhbərləri təşəkkür etmişdilər

## Görkəmli dövlət xadimi Heydər Əliyevin səlahiyyətli hərbi nümayəndəsi ilə söhbət

*2023-cü ilin ölkəmizdə “Heydər Əliyev İli” elan olunması dahi şəxsiyyət Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinin bir çox maraqlı tərəflərinə işıq tutmağa, ən yeni tariximizə yenidən nəzər salmağa imkan verib. Xüsusilə Ümummilli Liderin siyasi fəaliyyətinin 1990-1993-cü illəri əhatə edən Naxçıvan dövrü Azərbaycanın müstəqilliyinin qorunması, milli dövlətçiliyimizin xilası baxımından çox böyük əhəmiyyət daşıyır. Əbəs yerə demirəm ki, əgər həmin dövrdə Naxçıvanın təhlükəsizliyi qorunmasaydı, Azərbaycan dövlət müstəqilliyi də sual altına düşə bilərdi. Muxtar diyarın təhlükəsizliyinin təmin olunması ilə bağlı müstəqil Azərbaycanın ilk milli ordu hissəsinin əks-kəşfiyyat rəisi, Heydər Əliyevin səlahiyyətli hərbi nümayəndəsi kimi fəaliyyət göstərmiş Urfullah Qurbanovla həmsöhbət olduq. Sabiq kəşfiyyatçı ilə növbəti görüşümüzdə həmin dövrdə baş verən hadisələri, gedən hərbi-siyasi prosesləri bir daha nəzərdən keçirməyə çalışdıq.*

***– Urfullah müəllim, siz bir neçə il Ulu Öndər Heydər Əliyevlə çalışmısınız...***

– Əvvəlcə onu deyim ki, 1990-cı ildə Ümummilli Liderimiz Heydər Əliyevin Moskvadan Bakıya, oradan isə Naxçıvana qayıdışı, həqiqətən, İlahinin bir töhfəsi idi. Çünki həmin vaxt Naxçıvan artıq çox ağır vəziyyətdə yaşamağa məhkum olmuşdu. Ermənilərin işğalçılıq niyyəti ilə sərhəd yaşayış məntəqələrinə hücumları, eyni zamanda muxtar respublikanın blokadaya salınması vəziyyəti daha da ağırlaşdırırdı. Tale mənim də qismətimə Ümummilli Liderimizlə bir yerdə işləmək nəsib etmişdi. Şükürlər olsun ki, həmin dövrdə Ulu Öndərimiz tərəfindən mənə verilən bütün tapşırıqları vaxtında və layiqincə yerinə yetirməyi bacarmışam. Ölkə mətbuatında dərc olunan “Xüsusi dövlət əhəmiyyətli tapşırıq” adlı silsilə yazılarda da elə bundan bəhs etmişəm.

***– Və həmin silsilə yazılardan da görünür ki, həyatınızı təhlükəyə ataraq çox iş görmüsünüz. Bəs qorxmurdunuz ki, sizə nə isə edə bilərlər?***

– Hədə-qorxu gələnlər az deyildi, hətta mənə qarşı sui-qəsd də hazırlamışdılar. Onlar bizim müstəqilliyimizə, dövlətçiliyimizə qarşı çıxan bir sıra siyasi qurumların kənardan idarə olunan törəmələri idilər. Ona görə də qorxu hissini özümə yaxın buraxmırdım. Çünki biz bu günümüz, müstəqilliyimiz, milli dövlətçiliyimiz üçün fəaliyyət göstərirdik. Həmişə dövlətimizin yanında olmuşuq, bu gün də yanındayıq. Təbii ki, təmənnasız olaraq. Bəzi məmurların bizə ögey münasibəti heç də dövlətimizin



bizə ögey münasibəti deyil. Sadəcə, o məmurlar dövlət adamı deyildilər. Dövlət adamı olmağı biz öz işimizlə, Vətənimizə, dövlətimizə xidmətlərimizlə sübut etmişik.

***– Xüsusi dövlət əhəmiyyətli tapşırıqla bağlı əlavə nə isə demək istərdinizmi?***

– Xüsusi dövlət əhəmiyyətli tapşırıq bu gün gənclərimiz üçün vətənpərvərlik dərsidir. Bu silsilə yazılar mətbuatda dərc olunandan sonra mənə respublikamızın müxtəlif bölgələrindən çoxsaylı zənglər oldu. Əksəriyyəti gənclər idi. Yazı onlarda dərin iz buraxmışdı, onları ruhlandırmışdı. Onları dinləmək mənim üçün çox xoş idi. Sevinirəm ki, bizim qəhrəman gəncliyimiz var. 44 günlük İkinci Qarabağ müharibəsi bunu hər kəsə sübut etdi. Minlərlə gəncimiz şəhadətə, qazilik zirvəsinə yüksəldi. Ali Baş Komandanımızın sədaqətli əsgərləri olduqlarını döyüş meydanında sübut etdilər.

***– Sizin saxladığınız bəzi (məxfi S. H.) sənədlərlə tanış olduqda çox maraqlı hadisələrin yaşandığını görürük. Sirr deyilsə, 1994-1995-ci illərdə Ulu Öndər sizə hansı tapşırıqları vermişdi?***

– Bu haqda bir müddət keçəndən sonra açıqlama verərəm. Bəzi millət vəkillərinin, siyasətçilərin o dövrlə bağlı hadisələr haqqında çıxışlarına baxıram, məndə gülüş hissi yaradır. Bəzən elə yalanlar uydururlar ki, fikirləşirsən, bu adamlar görəsən, daha nə istəyir?

Onu da deyim ki, tapşırıqlar, əsasən, siyasi məsələlər ilə bağlı tapşırıqlar idi. Hansı ki nəticələri 1993-cü ildəki Prezident seçkilərində özünü göstərdi.

***– Bəs Ulu Öndərin prezidentlik dövründə necə, yenə tapşırıqlar olurdumu?***

– Bəli, 1994-1995-ci illərdə o tapşırıqları yerinə yetirdiyim üçün görkəmli dövlət xadimimiz mənə təşəkkür etmişdi.

***– Ulu Öndərimiz Prezident seçiləndən sonra ilk işiniz nə oldu?***

– İlk dəfə olaraq qanunsuz silah və sursatların aidiyyəti qurumlara təhvil verilməsinə təşəbbüs göstərdim...

***– Təşəbbüsünüz necə qarşılandı?***

– Demək olar ki, respublikanın bütün hüquq-mühafizə orqanlarının rəhbərləri təşəkkür etmişdilər.

Müxtəlif bölgələrdə saxlanılmış silah-sursatlar polis və digər qurumlara təhvil verilməyə başlandı. Hətta Azərbaycan Dövlət Televiziyası bu haqda xüsusi buraxılış da hazırlamışdı.

***– Məndə olan məlumata görə, həmin vaxt təkcə qanunsuz silahlar aşkarlanıb yığılmamışdı...***

– Bəli, eyni zamanda qanunsuz silahlı qruplar vaxtında aşkarlanaraq zərərsizləşdirildi.

***– Sizdəki sənədlərlə tanışlıqdan onu da öyrəndim ki, Naxçıvanda işsizliyin, iqtisadi vəziyyətin aşağı olduğu dövrlərdə siz bir sıra müəssisələrin işə salınmasında, yüzlərlə insanın işlə təmin edilməsində də bir sıra işlər görübsünüz.***

– Bəli, 1998-ci ildə Türkiyə Cümhuriyyətinin Naxçıvandakı Baş Konsulluğundakı dostlarıma – hərbi attaşelərə müraciət edərək bildirmişdim ki, sovet dövründə burada böyük sənaye müəssisələri yaradılıb. Blokada şəraitində, sifariş almadıqlarından həmin müəssisələr bağlanmağa məcbur olublar. Bizdə elektrik enerjisi, işçi qüvvəsi sizinlə müqayisədə daha ucuz başa gəlir. Türkiyədən hər hansı bir sifariş olarsa, burada hazırlayıb sizə göndərə bilərik. Fikrimi bəyəndilər və bu istiqamətdə fəaliyyətə başladıq. Beləliklə, vaxtilə Heydər Əliyevin Naxçıvanda qurduğu Naxçıvan Alt Trikotaj Fabriki işə salındı. Müəssisə min nəfərə yaxın işçi ilə təmin olundu. Şəhid, qazi, müharibə iştirakçılarının ailə üzvlərinə işə qəbul zamanı daha çox üstünlük verildi və onlar yüksək maaşla təmin olundular. Sonra Naxçıvan Nazirlər Kabinetindən mənə muxtar respublikanın yüngül sənaye müəssisələrinə sifariş almaq üçün Türkiyə Müdafiə Nazirliyində danışıqlara rəhbərlik səlahiyyəti verildi. Bu işdə mənə oradakı dostlarım Abdullah paşa, Hamdi, Ərcümənt, Kasım, Sönməz, Ərdal albaylar (polkovniklər) çox yardım etdilər. Həmin dövrdə Naxçıvanda elektrik enerjisi iki saatdan bir verilirdi. Şəhərdə Elektrotexnika Zavodu fəaliyyət göstərirdi. Direktoru dostum Mehdi müəllim idi. Ona müxtəlif vattlı (güclü) elektron drossellərin hazırlanmasını təklif etdim, nümunələr verdim. Yüz nəfərə yaxın işçinin işlə təmin olunacağı layihəni təqdim etdim. Çox sevindi, axı zavod uzun illər idi ki, işləmirdi. Layihəni Nazirlər Kabinetinə təqdim etdi, mənə bildirdi ki, çox bəyəndilər. Amma sonra mənə məlum olmayan səbəblərdən layihə icra edilmədi...

***– Bir qədər karyeranız haqqında danışaq. Sonrakı fəaliyyətiniz necə oldu?***

– Hələ o vaxt, 1992-ci ildə Ümummilli Lider Heydər Əliyev Naxçıvanda yeni yaranmış nazirliklərin birində məni görmək istədiyini bildirmiş və təqdimat vermişdi. Sənədlərimi hazırlayıb təqdim etdim. Bakıya gedib tibbi komissiyadan keçdim, kadrlar şöbəsində şəxsi işimin nazirliyə daxil olan kimi əmrimin veriləcəyini bildirdilər. Üstündən bir ildən artıq keçməsinə baxmayaraq, şəxsi işlərim Naxçıvandan Bakıya göndərilmədi. Hətta iki dəfə mənim yanımda Ulu Öndər öz köməkçisinə Urfullahın iş məsələsi ilə məşğul ol, – deyə göstəriş verdi. Sonuncu dəfə nazirin (dünyasını dəyişdiyi üçün adını çəkmirəm) yanında olanda “mənim təqdimatımı Heydər Əliyev verib, sizsə mənimlə başqa söhbət edirsiniz”, – deyərək şəxsi işlərimi geri aldım. Heydər Əliyev artıq prezident idi, onunla görüşmək imkanı olmadı. Yalnız 2003-cü ilin əvvəllərində milli təhlükəsizlik naziri Namiq Abbasov Azərbaycanın ərazi bütövlüyü, dövlətin təhlükəsizliyi uğrunda göstərdiyim xidmətlərə görə Heydər Əliyevin adından, Azərbaycan dövləti, hökuməti və öz adından təşəkkür məktubu göndərmişdi.

***– Gördüyünüz işlərin qarşılığında sizə hər hansı dövlət mükafatı verildimi? Sosial problemlərinizin həllinə qayğı göstərildimi?***

– Xeyr, əksinə, hüquqlarım kobud şəkildə pozuldu. Bir neçə dəfə Naxçıvan rəhbərliyindən məni qəbul etməsini xahiş etsəm də, qəbul etmədilər. Bu barədə geniş danışmağa lüzum görmürəm. Çünki heç vaxt gördüyüm işdə təmənna güdməmişəm. Nə etmişəmsə, Vətənim, dövlətim üçün etmişəm.

***– Müsahibəyə razılıq verdiyiniz üçün sizə təşəkkür edirik, əlavə demək istədiyiniz nə isə varmı?***

– Siz də sağ olun. Ən böyük arzum Vətənimizin müstəqilliyinin əbədi qorunması, böyük Turanın qurulmasıdır. Əlavə olaraq bunu qeyd etmək istəyirəm ki, dövlətimizin inkişafı üçün seçilən məmurların bilikli, savadlı olmasından öncə milli, vətənpərvər, dövlətə və millətə sədaqətli olmaları gərəkdir.

***Müsahibəni hazırladı:***

✍ **Səbuhi HƏSƏNOV**

# Novruz Novruzlu: *“Bu il sahibkarlara 4 milyon 155 min manat güzəştli kredit verilib”*

*Naxçıvanda sahibkarlıq subyektlərinə dövlət dəstəyi mexanizmlərindən biri də investisiya layihələrinin həyata keçirilməsi məqsədilə güzəştli kreditlərin verilməsi, iqtisadiyyatın, xüsusilə özəl sektorun inkişafına töhfə verəcək prioritet proqramların maliyyələşdirilməsidir. Sahibkarlığın İnkişafı Fondu sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxışının təmin edilməsinə dövlət dəstəyini həyata keçirən əsas qurumlardan biridir. Naxçıvanda dövlət dəstəyi ilə güzəştli kreditlərin verilməsi ilə bağlı suallara Sahibkarlığın İnkişafı Fondunun İdarə Heyətinin sədri Novruz Novruzlu cavab verib.*

***– Novruz müəllim, əvvəlcə Fondun xətti ilə verilən güzəştli kreditlərin şərtlərini xatırladardınız. Hazırda Sahibkarlığın İnkişafı Fondu hansı şərtlərlə və hansı istiqamətlərə kreditlər ayırır?***

– Sahibkarlıq subyektlərinə verilən güzəştli kreditlər 3 kateqoriyaya bölünür: bura 5 min manatdan 25 min manatadək kiçikhəcmli kreditlər, 25 min bir manatdan 5 yüz min manatadək ortahəcmli kreditlər və 5 yüz min bir manatdan 10 milyon manatadək irihəcmli kreditlər aiddir. Kiçikhəcmli kreditlər üç ilədək, ortahəcmli kreditlər 5 ilədək və irihəcmli kreditlər 10 ilədək müddətə təqdim edilir.

Kreditlərdən istifadə üzrə güzəşt müddəti sahibkarlıq subyektinin investisiya layihəsi üzrə nağd pulun hərəkəti barədə məlumat əsasında müəyyən edilir və kreditdən istifadə müddətinin ilk 1/2 dövrünü əhatə edə bilər.

***– Bəs sahibkar istəsə, güzəşt müddətini azalda bilərmi? Həm də oxuculara daha aydın olsun deyə, onu misalla izah edə bilərikmi?***

– Bildiyiniz kimi, kredit vəsaiti sahibkarlıq subyektinə güzəşt müddəti ilə verilir. Belə ki, misal üçün, kredit vəsaiti 5 il müddətə verilibsə, yəni ortahəcmli kreditdirsə, bu zaman vaxt iki hissəyə bölünür, birinci 30 ay güzəşt müddəti sayılır və sahibkar ancaq faiz borcunu ödəyir. İkinci 30 ay başladıqda isə artıq sahibkar tərəfindən müvəkkil bankın təqdim etdiyi qrafikə uyğun olaraq əsas borcun ödənilməsinə başlanılır.

***– Novruz müəllim, kreditin faizi necə bölünür? Bunun hansı hissəsi bankların və Fondundur?***

– Fondun kreditlərinin illik faiz dərəcəsi 1 (bir) faizdən, müvəkkil kredit təşkilatlarının tətbiq etdikləri illik faiz dərəcəsi isə 4 (dörd) faizdən artıq olmamaq şərtilə, ümumilikdə, güzəştli kreditlərin illik faiz dərəcəsi 5 (beş) faizədək müəyyən edilir.

***– Sahibkarlarımızın əksəriyyətinin problemlərlə üzləşdiyi yer məhz girov təminatıdır. Belə hallar olurmu ki, siz layihədən razısınız və layihəni maliyyələşdirməyə hazırsınız, amma girov olmadığına görə, bu layihə maliyyələşmir.***



– Çox gözəl bir məqama toxundunuz. Sahibkarların güzəştli kredit üçün müraciət proseduru ilkin olaraq müvəkkil kredit təşkilatları – banklar, bank olmayan kredit təşkilatları və kredit ittifaqlarıdır. Müraciət həmin təşkilatlara olunur və həmin banklar, müvəkkil kredit təşkilatları layihəni dəyərləndirir, əgər müsbət qərar verilirsə, bu zaman güzəştli şərtlərlə maliyyələşdirilmə məqsədilə Fonda müraciət olunur. Fond 10 iş günü ərzində bu müraciəti dəyərləndirir, əgər müsbət rəy verilərsə, öz rəyini banka bildirir və bundan sonra bank maliyyələşmə üçün sifariş təqdim edir. İmtina olunduğu təqdirdə də Fond yenə də bu barədə məlumat verir. Burada əsas məqam ondan ibarətdir ki, sahibkarlıq subyektləri ilkin olaraq müvəkkil kredit təşkilatına (banka) müraciət edir və girov predmeti bankda saxlanıldığından bu prosesdə Fond iştirak etmir.

O ki qaldı girov probleminə, doğrudan da, bizə, sözsüz ki, sahibkarların müraciətləri olur və bu müraciətlər zamanı bizim eşitdiyimiz problemlərdən ən əsası girov təminatı ilə bağlı olan problemlərdir. Amma banklar müstəqil, lisenziya əsasında fəaliyyət göstərirlər. Onların girov tələbinə qarşı hər hansı bir tələbin Fond tərəfindən qoyulması düzgün olmazdı.

***– Fond bu il nə qədər güzəştli kredit layihəsini dəstəkləyib? Həmin layihələr, əsasən, hansı istiqamətləri əhatə edir?***

– 2023-cü il yanvarın 1-dən bu günədək Sahibkarlığın İnkişafı Fondu tərəfindən iqtisadi inkişafın prioritet istiqamətləri üzrə müəyyənləşdirilmiş sahələrin maliyyələşdirilməsinə 24 layihə üzrə 4 milyon 167 min manat məbləğində vəsait ayrılıbdır. Bu vəsaitin 3.690.000 manatı sənaye məhsullarının istehsalına, 462.000 manatı kənd təsərrüfatı məhsullarının istehsalına, 15.000 manatı isə xidmət sahələrinin inkişafına yönəldilib. Bu il güzəştli kredit layihələrinin sayca 99,7 faizi sənaye və kənd təsərrüfatının payına düşüb.

***– Fondun kredit təşkilatlarının sayı nə qədərdir?***

– Hazırda Sahibkarlığın İnkişafı Fondu “Azərbaycan Beynəlxalq Bankı”, “Aqrarkredit” QSC və “Naxçıvanbank” ASC olmaqla, ümumilikdə, 3 müvəkkil kredit təşkilatı ilə əməkdaşlıq edir. Daha iki bank müvəkkil qismində fəaliyyət göstərmək istəyi ilə Fonda müraciət edib və hazırda bu istiqamətdə qanunvericiliyə uyğun tədbirlər həyata keçirilməkdədir.

***– Müsahibə üçün sağ olun.***

**Çinarə BALAYEVA**

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

## Ordubad şəhərində vergiödəyiciləri üçün xidmət mərkəzi qurulur



Naxçıvan Muxtar Respublikasında tətbiq edilən müasir vergi inzibatçılığının davamı olaraq vergi ödəyicilərinə göstərilən xidmət səviyyəsinin artırılması məqsədilə Ordubad şəhərində vergiödəyiciləri üçün müasir dizaynlı yeni xidmət mərkəzi qurulur. Son avadanlıqlarla təchiz ediləcək xidmət mərkəzində bölgədə fəaliyyət göstərən vergiödəyicilərinə vergi sahəsində bütün xidmətlər təqdim ediləcək və onların vergi məsələlərinin həllinə dəstək göstəriləcək.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## “Heydər Əliyev yolunun uğurlu davamı: Zəfər yolu” mövzusunda tədbir keçirilib





*Naxçıvan Dövlət Milli Dram Teatrında Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Mədəniyyət nazirliklərinin birgə təşkilatçılığı ilə “Heydər Əliyev İli”, Prezident cənab İlham Əliyevin hakimiyyətə gəlməsinin 20 illiyi və Zəfər Günü ilə bağlı keçirilən tədbirin başlanğıcında Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

Görkəmli dövlət xadimi Heydər Əliyev irsinin və Zəfər tariximizin gənc nəslə aşılanması, gənclərin vətənpərvərlik hisslərinin yüksəldilməsi ilə bağlı çıxış edən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin aparat rəhbəri İlhamə Nəzərova Ulu Öndərin gənclərin əsl vətənpərvər kimi yetişdirilməsində müstəsna xidmətlər göstərməsindən danışıb. Bildirib ki, Prezident cənab İlham Əliyevin ordunun və müdafiə sənayesinin gücləndirilməsi istiqamətində həyata keçirdiyi davamlı işlər böyük qələbəyə aparan yolun ən mühüm istiqaməti oldu.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin aparat rəhbəri Piri Nağıyev Ulu Öndər Heydər Əliyevin bütün sahələrdə layiqli davamçısı cənab İlham Əliyevin 20 illik hakimiyyəti dövründə xalqımızın və dövlətimizin dirçəlişi, tərəqqisi, dünya arenasında öz layiqli yerini tutmasından söz açıb. Bildirilib ki, ölkə başçısı tərəfindən ötən dövrdə dövlətin mədəniyyət siyasəti uğurla həyata keçirilib, xalqımızın əsrlərboyu yaratdığı zəngin mədəniyyət və incəsənət nümunələri bütün dünyada tanıdılıb. Milli dəyərlərimizi qorumağın, onu gələcək nəsillərə ötürməyin, xüsusilə qloballaşma şəraitində tarix və taleyüklü vəzifələrdən biri olduğu, bunun, sadəcə, tarix qarşısında mənəvi borc deyil, həm də bu günün və gələcəyin müqəddəratını təyin edən missiya olduğu vurğulanıb.

Tədbirdə Vətən müharibəsi iştirakçısı Həsən Xəlilov və fəal gənclərdən Əli Yarıyev çıxış ediblər.

Muxtar respublikanın şəhər və rayonlarının fəal gəncləri, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri, Heydər Əliyev adına Hərbi Liseyin, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi Orta İxtisas Polis Məktəbinin kursantları, Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu, “Naxçıvan” Əlahiddə Sərhəd Diviziyası, Fövqəladə Hallar Nazirliyinin zabit və əsgərlərinin, Vətən müharibəsi iştirakçıları, gənc müəllimlər və könüllü gənclərin iştirak etdiyi tədbirdə “Heydər Əliyev və Zəfər yolu” adlı sənədli film nümayiş olunub.

Sonda Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının ifasında konsert proqramı təqdim olunub. Qeyd edək ki, Naxçıvan Dövlət Milli Dram Teatrının foyesində istedadlı gənclərin rəsm əsərləri və əl işlərindən ibarət sərgi nümayiş olunub.

✍ **Bülbül QULİYEVA**

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin və “Mirvarid Dilbazi Poeziya Məclisi” İctimai Birliyinin təşkilatçılığı ilə Birliyin sədri Güllü Alıyevanın müəllifi olduğu “Anam kəlağayılı bir muğamıydı...” kitabının təqdimatı keçirilib.*

## “Anam kəlağayılı bir muğamıydı...” kitabının təqdimatı olub



26 noyabr – Azərbaycan Kəlağayısı Gününə töhfə olaraq ərsəyə gətirilən kitabda kəlağayının təbliği və tərənnümü ilə bağlı şair və yazıçılara, aşıqlara məxsus ədəbiyyat nümunələri, publisistik məqalələr toplanıb.



Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi Aparatının rəhbəri Piri Nağıyev nəşri milli-mənəvi dəyərlər sistemində özünəməxsus yeri olan kəlağayının yaşadılması və təbliği cəhətdən qiymətli bir kitab olaraq dəyərləndirib.

Sonra müəllif Güllü Alıyeva “Anam kəlağayılı bir muğamıydı...” kitabını çap etdirməsindəki məqsədindən danışarkən vurğulayıb ki, noyabrın 26-dək ölkəmizin ayrı-ayrı bölgələrində kitabın təqdimatı və ədəbi-bədii görüşlərin keçirilməsi nəzərdə tutulub.

Tədbirdə Xatirə Muzeyinin baş fond mühafizi, şair, “Mirvarid Dilbazi Poeziya Məclisi”nin üzvü Sevinc Səbzəliyeva, Naxçıvan radiosunun əməkdaşı, şair Təranə Arifqızı, Naxçıvan Televiziyasının baş redaktoru Ruhiyyə Rəsulova, şair Tural Nəqşicahan kitabla bağlı fikirlərini bölüşüblər.

Çıxışların ardından tədbir bədii hissə ilə davam edib. Naxçıvan aşıqlarının, Naxçıvan Dövlət Filarmoniyasının muğam üçlüyünün və qızlardan ibarət rəqs qrupunun ifaları mərasim iştirakçılarında xoş ovqat yaradıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*Qədim tarixə, mədəniyyətə, gözəl təbiətə, böyük iqtisadi potensiala malik olan Naxçıvan əsrlərdən bəri formalaşan rəngarəng və ecazkar mətbəxinin zənginliyi və özünəməxsusluğu ilə seçilir. Bu diyarda, o cümlədən onun bölgələrində hazırlanan yeməklər öz dad-tamı və keyfiyyəti ilə fərqlənir və ölkəmizin hər bir yerində adbaad tanınır. Naxçıvanın mətbəx mədəniyyəti qədim dövrlərdən bəri formalaşıb. Bunu muxtar respublika ərazisində aşkar olunmuş gil ocaq qurğusu, qazan, çölmək tipli qab qırıntıları, keramika məmulatları, dulusçuluq nümunələri sübut edir.*

*Naxçıvan mətbəxi*

## Ləziz təamları ilə seçilən, sevilən Ordubad mətbəxi



Çoxsaylı yemək növləri, bir-birindən ləzzətli naz-nemətləri ilə tanınan Naxçıvan mətbəxi milli mədəniyyətimizin mühüm tərkib hissəsidir. Muxtar respublikamızın, eləcə də onun bölgələrinin iqlim şəraiti, flora və faunası, coğrafi mövqeyi fərqli olduğuna görə mətbəxlər arasında olan müxtəlifliklər də özünü göstərir. Hər bir bölgəyə məxsus mətbəx nümunələri milli mətbəx mədəniyyətimizin zənginləşməsinə və inkişafına öz töhfəsini verir.

Kulinariyasının müxtəlifliyi və özünəməxsusluğu ilə seçilən bölgələrimizdən biri də Ordubad şəhəridir. Tarixi qədər mədəniyyəti də qədim olan bu diyar cəviz, gül, badımcan mürəbbələri, maş şorbası, əriştə aşı, alanabasdıq kimi milli yeməklərinin zəngin və çoxçeşidliliyi, quru (qaxac) meyvələrinin şöhrəti ilə tanınır.

Mövzu ilə bağlı Ordubad şəhər sakini ***Natiqə Əliyeva*** ilə həmsöhbət oluruq. O deyir ki, Ordubadın mətbəxi zəngindir, yeməklərimiz dadı və ləzzəti ilə seçilir. Belə ləzzətli yeməklərdən biri də maş (lobya) şorbasıdır. Ordubad rayonunun ən məşhur yeməklərindən olan bu şorbanın hazırlanmasında iki növ, quru və təzə maşdan (yaşıl lobya) çox istifadə olunur. Yayda bu yeməklər təzə qoyun əti ilə, qışda isə qovurma ilə bişirilir. Qovurma həm sulu, həm quru yeməklərə əlavə olunur ki, bu da yeməyə qeyri-adi dad və ləzzət qatır. Təzə lobya ordubadlıların yay fəslində ən çox bişirdiyi yeməklərdən biridir. Ordubadın zəhmətkeş əhalisi yazda quru lobyanı əkməklə yay-payız fəsli boyunca ondan istifadə edir, həm də qışa tədarük görürlər. Ordubad lobyası bazarlarda da satışa çıxarılır, qiyməti digər lobyalara nisbətən baha olsa da, alıcıların ən çox aldıqları qida məhsullarındandır.

Adətən, “ordubadlıyam” deyəndə Ordubad qayğanağını soruşanlar çox olur. Bu yemək növü adından sadə görünsə də, hazırlanması, əslində, zəhmət tələb edir. Evdə gündəlik olaraq hər kəs qayğanaq bişirə bilər. Lakin bu şirniyyatın bişirilmə qaydası digərlərindən bir az fərqlənir. Natiqə xala bu haqda dedi: – Ordubadlıların bişirdiyi qayğanaq gözəlliyi və ləzzəti ilə seçilir. Onu hamı bişirə bilməz. Çünki bu, öyrəşdiyimiz adi qayğanaq deyil, xeyli vaxt və zəhmət bahasına başa gəlir. Onun hazırlanmasına nə az, nə çox, düz 2 kiloqram kərə yağı, 18 yumurta və 1 stəkan baldan hazırlanmış şirə lazımdır. Rayon sakinləri bu yeməyi daha çox şad günlərində, evə qonaq gələndə bişirir, süfrəyə təqdim edirlər. Bu qayğanaqdan dadan axşamadək aclıq hiss etmir. Daha çox şirniyyat kimi istifadə edilir və onu günün istənilən saatında dadmaq olur.



Müsahibim qeyd edir ki, Ordubadda yay-payız aylarında bişirilən yemək çeşidlərinin içərisində, əsasən, qovurma üstünlük təşkil edir. Qovurma daha çox dana ətindən hazırlanır və qış boyu evin ətə olan ehtiyacını ödəyir. Ordubad mətbəxində ağartı məhsullarından hazırlanan dovğanın da xüsusi yeri var. Ordubadlılar dovğaya çay kənarlarında bitən yarpız və həyətlərdə becərilən keşniş qatırlar. Yarpız bir çox xəstəliklərin dərmanı olmaqla dovğaya da xüsusi dad verir. Həmçinin onun içərisinə düyü və noxud da əlavə edilir. Ordubadlılar dovğanı qışda da bişirə bilirlər. Yaz-yay aylarında yetişən pencərlərdən (göyərti) yığıb, qurudub, qışda da öz ləzzəti və dadı ilə seçilən dovğa hazırlayırlar. Bu qida növü, adətən, başqa yeməklərin yanında süfrəyə təqdim edilsə də, onu yemək kimi istifadə edənlər də olur. Müsahibim deyir ki, onun içərisinə quru çörək əlavə edib yedikdə ayrı yeməyə iştah olmur. Dovğa ətli və ətsiz də hazırlanır.

Natiqə xala qeyd edir ki, Ordubadın adı və dadı ilə məşhur yeməkləri sırasında Arzuman küftəsi də yer alır. Bu yemək evdə hazırlanan küftələrdən böyüklüyü və bişirmə qaydası ilə fərqlənir. Daş küftə adı ilə də tanınan Arzuman küftəsinin içərisinə turş quru meyvələr, bir çox halda isə yumurta, bölgələrdə isə toyuq qoyulur. Naxçıvan mətbəxində bişirilən küftənin dadı istənilən halda ləzzətli olur. Həmçinin Ordubad mətbəxində xüsusi yeri olan yeməklərdən biri də əriştə aşı yeməyidir. Bu yemək qış boyu bişirilir. Avqust-sentyabr aylarında əriştə kəsilib, qurudulur qışa tədarük görülür.

Müsahibim qeyd edir ki, Ordubadın quru meyvələri, limonu onun mətbəxinə xüsusi zənginlik qatır. Ordubadlılar yayda yetişən meyvələri yığıb, qurudub qışa tədarük görürlər. Ordubadı ziyarət edən hər kəs limonlu çaydan



dadır. Ordubadlılar qışda bu çayın yanında quru meyvələrdən istifadə edirlər. Quru meyvələrin əksəriyyəti mətbəxdə müxtəlif yeməklərin, şirniyyatların hazırlanması zamanı da istifadə olunur.

*Ordubad kulinariyasının müxtəlifliyi turistlərin də diqqətini cəlb edir. Göründüyü kimi, Ordubada getmək, gəzmək üçün çoxlu səbəblər var. Qədim evlərin qalıqları, köhnə qapılar, qədimliyini və tarixiliyi özündə qoruyub saxlamış məscidlər, meydanlar insanda çox böyük təəssürat yaradır. Odur ki, qeyri-adi təamlardan dadmaq, təbiət qoynunda dincəlmək istəyənlər üçün Ordubad ən gözəl seçimdir.*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

***İtmişdir***

Babək şəhəri, Zeyniyev İmran İsmayıl oğlunun adına olan JN-62^A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 635